

# *Elçin İSGƏNDƏRZADƏ-60*

16 sentyabr 1964-cü ildə Şuşa şəhərində anadan olub.

1981-ci ildə Ağdam şəhər 6 saylı orta məktəbi Qızıl medalla bitirib. 1981-1986-cı illərdə Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsində təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirib.

1984-cü ildə Təhsil Naziri tərəfindən "Ən yaxşı tələbə elmi işi üçün" medalı ilə təltif olunub.

1989-1992-ci illərdə Azərbaycan Texniki Universitetində "Maşın və mexanizmlər nəzəriyyəsi" ixtisası üzrə aspiranturada təhsil alıb.

Texnika və filologiya elmləri doktoru, professordur.

1996-cı ildən etibarən Azərbaycan Texniki Universitetinin "Metrologiya və standartlaşdırma" kafedrasının dosenti, professoru və Tədris işləri üzrə prorektorun köməkçisi vəzifələrində çalışmışdır.

24 fevral 2015-ci ildən 02 fevral 2021-ci ilə qədər həmin kafedranın müdiri vəzifəsində çalışıb.

2011-ci ildə "Avropanın Fəxri İxtiraçısı" adına və Qızıl Medalına layiq görülüb.

2012-ci ildə "Avropanın Əməkdar Elm və Mədəniyyət Xadimi" fəxri adı ilə təltif olunub.

2013-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin poeziya üzrə "Qızıl Kəlmə" mükafatına layiq görülüb.

2013-cü ilin sentyabrından 2021-ci ilin yanvarınadək Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü, 2021-ci ilin yanvarından 2023-cü ilə qədər Ekspert Şurasının sədr müavini olmuşdur.

2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2007-ci il tarixli 612 saylı Fərmanına əsasən Prezident təqaüdünə layiq görülüb.

2014-cü ildə "Azərbaycan Respublikasının Fəxri Mədəniyyət İşçisi" Fəxri adına və medalına layiq görülüb.

2014-cü ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən Fəxri Fərmanla təltif edilib.

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi" fəxri adı və nişanına layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2016-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar Müəllimi" fəxri adı ilə təltif edilib.

2021-ci ildə Oxford Universitetinin keçirdiyi sorğu əsasında Metrologiya və nano ölçmələr elmi istiqaməti üzrə "İlin Alimi" seçilmişdir.

2022-ci ildə Azərbaycan Yazarlar Birliyinin Qarabağ Bölməsinə sədr seçilmişdir.

10 iyun 2022-ci ildə Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Elmi-Tədqiqat Aerokosmik İnformatika İnstitutunun direktoru vəzifəsinə təyin edilmişdir.

2022-ci ildə müdafiə sənayesi sahəsindəki yüksək xidmətlərinə görə, "Müdafiə Sənayesi Nazirliyinin 15 illiyi" yubiley medalı ilə təltif edilmişdir.

2009-cu ildən Avropa Təbiət Elmləri Akademiyasının (Hanover, Almaniya) Türkdilli ölkələr Şöbəsinin rəhbəridir.

Avropa Təbiət Elmləri Akademiyasının (Almaniya), İtaliya Beynəlxalq Elmlər Akademiyasının, Beynəlxalq Kadr Akademiyasının (Ukrayna), Vatikan Bonefisiana Beynəlxalq Elmlər Akademiyasının, Təbriz Dil və Kültür Akademiyasının (İran), Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (Türkiyə), "Qafqaz Xalqları" Beynəlxalq Elmlər Akademiyasının, Gürcüstan Milli Elmlər Akademiyasının, Avropa Mədəniyyət Akademiyasının (Bolqarıstan), Rusiya Metrologiya Akademiyasının, Beynəlxalq Elmlər Akademiyasının (Avstriya) həqiqi (akademik) üzvü seçilib.

Dünyanın müxtəlif ölkələrində keçirilmiş 100-dək beynəlxalq və respublika miqyaslı elmi qurultay, konqres, simpozium və konfransların iştirakçısı olub.

Bədii yaradıcılıqla məşğul olur. 1997-ci ildə Azərbaycan Yazıçılar Birliyinə və 1998-ci ildə Azərbaycan Jurnalistlər Birliyinə üzv seçilib.

Azərbaycan yazıçılarının X, XI, XII, XIII qurultaylarının nümayəndəsi olub. 2010-cu ildə Türk Dünyasında ilk dəfə Dünya Böyük Şeir Mükafatına (The World Grand Prize for Poetry) layiq görülüb.

2004-cü ildə AVRASİYA Beynəlxalq Qurumu tərəfindən Asiya ölkələri üzrə Mədəniyyət Səfiri təyin edilib.

Elmi və ədəbi uğurlarına görə Avropa Şərəf Ordeni (Cenevrə), V.V.Mayakovski ordeni (Rusiya), "Elm və Təhsilin inkişafındakı xidmətlərinə görə" Böyük Qızıl Ordeni (Ukrayna), A.S.Puşkin medalı (Rusiya Ədəbiyyat Akademiyası), Leonardo da Vinçi medalı (Roma, İtaliya), Eyler medalı (Münhen, Almaniya), "Roma şəhərinin fəxri alimi" medalı (İtaliya) və digər orden və medallar ilə təltif olunub.

320-dən çox elmi əsərin, 68 ixtiranın, 30 monoqrafiya və dərs vəsaitinin, 95 bədii və elmi kitabın, 130 çevirmə kitabının müəllifidir.

Türkiyə, Almaniya, Özbəkistan, Rusiya, Latviya, Litva, Belarus, Gürcüstan, Qazaxıstan, Quzey Kıbrıs Türk Cümhuriyyəti, İran, Rumıniya, Ukrayna, Suriya, Qırğızıstan, Kosovo, Makedoniya, Bolqarıstan, İraq və digər ölkələrdə kitabları yerli dillərə çevrilərək çap olunub.

**Elçin İsgəndərzadəni 60 illik yubileyi münasibətilə təbrik edir, yaradıcılığında və işlərində ona daha böyük uğurlar arzulayırıq.**

**Azərbaycan Yazıçılar Birliyi**